# «Əli Tudə - 100» kitabı bugün və gələcək üçün işıqlı səmtdir

***Hər insan, əslində, bir tarixdir. Tarixi daş yaddaşa çevirən əsrlər, insanı tarix edən min illər sonra üçün qoyduğu xeyirxah işlər, insani keyfiyyətlər və bəşəri düşüncələrdir. Zamanın sürət qatarı tarixləşən insanları özlərindən sonra neçə-neçə nəslə tanıdır, daha neçə-neçə nəsil üçün nişanə qoyur. Heç şübhəsiz, Cənubi və Şimali Azərbaycanın görkəmli şairi, illərdir unudulmayan, şeir-poeziya deyiləndə dərhal xatırlanan Əli Tudə də məhz belə tarixləşən insanlardandır...***

Vaxt-zaman Əli Tudənin ömründən 100 ilmə qoparıb. Artıq 100 ildir ki, bu görkəmli şair nəsillərin yaddaş salnaməsinə çevrilən ziyalılarımızdan biri kimi diqqət mərkəzindədir. Elə bu diqqətin nəticəsidir ki, 2023-cü ildə - 100 illik yubileyi ərəfəsində «Azərbaycan Nəşriyyatı» MMC tərəfindən haqqında «Əli Tudə - 100» adlı iri həcmdə - 608 səhifəlik bir toplu buraxılıb. Topluya, annotasiyadan da göründüyü kimi, şairə həsr olunmuş yazılar, fikirlər, sənədlər, şeirlər, şairin öz əsərləri barədə biblioqrafik məlumatlar daxil edilib.

«Əli Tudə - 100» kitabında başlıca məqsəd insançılıq, Vətən amili, bütövləşmə fəlsəfəsi, bir sözlə yer-yurd mentallığıdır. Burada Azərbaycanın ikiyə parçalanmış hicran acıları da var. Bunu Əli Tudə haqqında yazılmış fikirlər də isbat edir. Cənubi və Şimali Azərbaycan həqiqəti ilə əks edən materialların əksərində Əli Tudə əvvəlcə hər iki Azərbaycanın, sonra da bütöv, vahid Azərbaycanın şairi kimi təqdim olunur. Dost-həmkarlarının eyhamlarından da anlamaq olur ki, Əli Tudə heç vaxt Azərbaycanı iki səmtdə, yaralı şəkildə qəbul etməyib, o, qələmə aldığı şeirlərin demək olar ki, hamısında Azərbaycanı təkvahid ölkə kimi əks etdirib, nə vaxtsa «Azərbaycan» sözünün qarşısından «Cənubi» və «Şimali» sözlərinin götürüləcəyinə əminliyini ifadə edib.

«Əli Tudə - 100» adlı topluda parlaq bir Əli Tudə obrazı, monumental bir Əli Tudə heykəli aşkar edirik. Həyatı özü üçün dəlil, yaşamı fakt və taleyi dəyişkən zəmin hesab edən Əli Tudə bu obrazda da çox oxşar, çox dəqiq təsvir edilib. Onun «heykəli»ni yonanlar da eynən bu tərzdə Əli Tudə şəxsiyyətini səmimi-inandırıcı faktlarla verib, görkəmli şairə əbədi ehtiramlarını bildiriblər.

«Əli Tudə - 100» kitabı nə vaxtsa ölməz şair haqda elmi tədqiqat işləri aparanlar üçün çox gərəkli və elmi əsası olan tutarlı mənbədir. Burada Əli Tudənin kimliyi, mövqeyi, məqsədi, məramı, qənaəti, baxışı, hətta iranoiyası belə tam-detallı açıqlanıb. Sağlığında qəlb sirdaşı olduğu insanların haqqında ifadə etdikləri bugünkü nəsil üçün bir tütyə (göydəndüşmə) kimi təsir verir. Belə bir kitabın nəşri həm Əli Tudə şəxsiyyətinə, həm də Əli Tudəni sevən milyonlara sanballı bir ərməğandır. Bu ərməğanın içində həqiqəti çəkinmədən söyləyən, ölümün gözünə dik baxan, ədəbi




nümunələrində parçalanan Azərbaycanın harayını, hicran yanğılarını, ah-naləsini dəli bir hayqırtı ilə cəmiyyətlərə çatdıran, bütöv Azərbaycan uğrunda daim cihadüsyan edən ölməz bir şairin - əbədiləşən Əli Tudənin isti-ılıq nəfəsi, təlatüm edən baxışları var. «Əli Tudə - 100» kitabı tanış olduqca bizə bu anlamları verdi. Biz belə qənaətə gəldik ki, adıçəkilən kitabın təkcə ölkəmizdə deyil, elə Əli Tudənin özünün də «hicran beşiyi» adlandırdığı Cənubi Azərbaycanda yayınlanması mütləqdir.

Əslində, «Əli Tudə - 100» kitabı Cənublu-Şimallı Azərbaycanın haqq səsidir. Əli Tudənin içinin yanğılarını ifadə edən dost-həmkar, eyni fikirli insanların qəlb hıçqırtılarıdır. İnsanlıq zirvəsinin, Vətən sevgisinin, dövlətçilik amalının harada yerləşdiyini, nə olduğunu anlamaq üçün bu kitabı oxumaq gərəkdir. Bu kitab qaranlıqlara, qatı zülmətlərə işıq salır. Bu işığın dalınca gedənlər sonda gerçəkləri və Əli Tudənin özünü görər...

100 illik yubileyi ərəfəsində nəşr olunmuş «Əli Tudə - 100» kitabını bugünkü və gələcək taleyimiz üçün işıqlı səmt və yön hesab edə bilərik.

Kitabın nəşrində əziyyəti keçənlərə minnətdarıq.

**Hikmət Məlikzadə**